**Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illiyi münasibətilə**

Auditorlar Palatasının məqsəd və vəzifələri dövlətin auditor xidmətinin tənzimləməsini təşkil etmək, bu sahədəki normativ aktları, ölkədə auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər sistemini işləyib hazırlamaq, dövlətin, təsərrüfat subyektlərinin və auditorların maraqlarını qorumaq, sonuncuların qanunvericilik və normativ aktlardan irəli gələn tələbləri yerinə yetirib-yetirmədiklərinə nəzarət etməkdir.

Hazırkı dövrdə müstəqil, peşəkar auditə tələbatın artması ilk növbədə sahibkarlığın və kapital bazarının özünütənzimləmə meylinin güclənməsi və işgüzar tərəfdaşlar arasında qarşılıqlı inama əsaslanan maliyyə münasibətlərinin yaradılması ilə əlaqədardır.

Müasir Azərbaycanın hərtərəfli inkişafı mühasibatlıq və audit sahəsində də uğurlara gətirib çıxarmışdır. Ötən illər ərzində Azərbaycanda peşəkar mühasib və auditorların hazırlanmasında Auditorlar Palatasının əvəzsiz rolu olmuşdur. Fərəhlə qeyd etmək lazımdır ki, artıq digər ölkələr Azərbaycanın audit sahəsindəki təcrübəsindən yararlanırlar.

Avropa Mühasiblər və Auditorlar Federasiyasının üzvü kimi Azərbaycan Respublikası Auditorlar Palatası beynəlxalq miqyasda geniş əməkdaşlıq həyata keçirir.

Bütövlükdə şəffaflığın artırılması, maliyyə resurslarından səmərəli istifadənin təmin olunması xüsusi diqqət tələb edən bir məsələ olub, iqtisadiyyatın və idarəetmənin müxtəlif sahələrində və səviyyələrində nəzarət işinin düzgün qurulmasını zəruri edir. Bir sözlə, iqtisadiyyatın birinci həll etməli olduğu problemlər arasında şəffaflıq xüsusi diqqət mərkəzində durmalıdır. Çünki bu, demokratiyanın mühüm ünsürlərindən biridir. Prezident İlham Əliyev də özünün gündəlik fəaliyyəti ilə hamını və hər kəsi demokratiyanı genişləndirməyə və möhkəmləndirməyə sövq edir.

**Hörmətli Vahid Müəllim**! Sizi salamlayır və rəhbərlik etdiyiniz Auditorlar Palatasının kollektivini 25-illik yubiley münasibətilə ürəkdən təbrik edirəm.

Bu müddət ərzində Sizin təşkilat böyük inam və qətiyyətlə ən dinamik və inkişaf edən professional təşkilatların sırasına daxil olmuş, beynəlxalq standartlar əsasında Azərbaycanda auditin inkişafında islahatların həyata keçirilməsi, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, müstəqi auditin nəzəri-metodoloji problemlərinin tədqiqi, peşəkar audit kadrlarının hazırlanması və onların ixtisasının yüksəldilməsi üzrə auditorların səylərinin birləşdirilməsi sahəsində böyük nailiyyətlər əldə etmişdir.

Sevindirici haldır ki, Azərbaycan auditorları yüksək peşəkarlığı, öz bilik və bacarıqlarını daim artırmağa can atmaları, auditorlara xas olan vicdanlılıq, obyektivlik, müstəqillik və peşə etikası normalarına sadiqlik kimi keyfiyyətləri ilə fərqlənirlər.

**Hörmətli Vahid Müəllim!** Bu fərəhli yubiley münasibətilə səmimi təbriklərimlə birlikdə Sizə ən xoş arzularımı bildirirəm. Auditorlar Palatasının kollektivinə işlərində daha böyük uğurlar, qarşıya qoyulmuş məqsədlərə nail olmaqda qətiyyət, möhkəm cancağlığı, səadət və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

AMEA-nın müxbir üzvü prof.

Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin” rəhbəri **A.F. Musayev**